**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# QƏRAR

**№ 11**

**Bakı şəhəri** **27 fevral 2026-cı il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Asif Loğman oğlu Osmanovun Balakən Rayon Statistika İdarəsi rəisinin müavini vəzifəsinin tutulması üçün 2026-cı il fevral ayının 18-də keçirilən daxili müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Osmanov Asif Loğman oğlu Balakən Rayon Statistika İdarəsi rəisinin müavini vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il dekabr ayının 18-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2026-cı il fevral ayının 18-də Dövlət Statistika Komitəsi aparatının rəhbəri Qasım Əliyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Nəsimi Məmmədov və müstəqil ekspert Qabil Əliyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Osmanov Asif Loğman oğluna müsahibə komissiyasının üzvlərinin hər biri 13 bal vermiş və nəticədə iştirakçı 13 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 19.02.2026-cı il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Osmanov Asif Loğman oğlunun 2026-cı il 19 fevral tarixli apellyasiya şikayəti təmin edilməsin və Balakən Rayon Statistika İdarəsi rəisinin müavini vəzifəsinin tutulması üçün 2026-cı il fevral ayının 18-də keçirilən daxili müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: